# Mingəçevirdə bayram bayrama qarışmışdı

## Nur şəhərinin 72 yaşı tamam olub












**30 ildən bəri Ermənistan silahlı qüvvələrinin işğal altında saxladığı Qarabağın azadlığı uğrunda müqəddəs savaşda şanlı ordumuzun qazandığı parlaq qələbə ölkəmizin hər yerində gerçək bir bayram əhval-ruhiyyəsi yaratmışdır. Hər bölgədə, hər evdə, hər ailədə qələbə böyük coşqu ilə qeyd edilir. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin siyasi müdrikliyi, böyük sərkərdə hünəri və Azərbaycan əsgərinin qəhrəmanlığı sayəsində düşmən tam məğlub olub.**

Məlum olduğu kimi, Azərbaycanın hərb tarixinə şanlı səhifə kimi daxil olan 44 günlük müharibədə mənfur düşmən cəbhə xəttindən kifayət qədər uzaqda yerləşən, Azərbaycan üçün böyük strateji əhəmiyyətə malik Mingəçevir şəhərini, buradakı su anbarını, elektrik stansiyalarını dəfələrlə raket zərbələriylə hədəf seçmişdir. Amma hava hücumundan müdafiə qüvvələrimizin sayıqlığı nəticəsində düşmən təxribatları yüksək peşəkarlıqla zərərsizləşdirilmişdir.

Ölkəmizi qələbə sevinci, bayram ovqatı bürüyür. Bu günlərdə Qafqazda ən böyük elektrik enerjisi istehsalçısı olan Mingəçevirdə ikiqat sevinc yaşanır. Energetiklər şəhərinin sakinləri Mingəçevirin 72-ci ildönümünü Vətən müharibəsindəki parlaq qələbəmizin doğurduğu böyük məmnunluq, könül xoşluğu ilə qeyd edirlər.

Mingəçevirlilər şəhər gününə xüsusi hazırlıq görmüşlər. Şəhərin prospekt, küçə və meydanları səliqəyə salınmış, əlvan rəngli plakat və pannolarla bəzədilmişdir. Vətən müharibəsindəki qələbəmizi və şəhərin 72-ci ildönümünü əks etdirən plakatlar diqqəti xüsusilə cəlb edirdi. Kür çayının üzərindəki körpüdən asılmış plakat daha möhtəşəm görünürdü: *“1948-2020: Mingəçevir - 72”.*

2020-ci ilin əvvəlindən şəhərdə aparılan abadlıq-quruculuq işləri davam edir. Bu işlər sayəsində Mingəçevirin sağ və sol sahillərində bir sıra yenidənqurma işləri aparılmış, şəhər daha müasir görkəm almışdır. Hər iki yaşayış sahəsində, eləcə də Mingəçevir kəndi, “Tərəvəzçilik”, “Şəfa” bağlar, “Azərbaycan İES”, “İncilli” və bir sıra digər yaşayış massivlərində aparılan abadlıq-quruculuq işləri şəhər sakinlərinin ürəyincə olmuşdur. Şəhərin 127-ci yaşayış məhəlləsində, eləcə də bir çox məhəllə və küçələrindəki yenidənqurma işləri də sakinlərin razılığı ilə qarşılanmışdır.

“Dostluq” parkı ərazisində “Dövlət Rəmzləri” muzeyinin və ona bitişik 200 nəfərlik örtülü yay salonunun istifadəyə verilməsi, eyni zamanda uşaq əyləncə, mini-futbol meydançalarının, musiqili fəvvarənin istifadəyə verilməsi böyük sevincə səbəb olmuşdur. Xaldan şosesi yaxınlığındakı “Nəsimi” parkının yaradılması isə bu ərazidə yaşayan əhalinin istirahətinin təşkilində əhəmiyyətli rol oynayır. Bununla yanaşı, çoxmənzilli yaşayış binalarının fasadlarının, girişlərinin, dam örtüklərinin təzələnməsi, bir çox məhəllələrdə, parklarda, prospekt və küçələrdə asfalt örtüklərinin yenilənməsi, işıqlandırma sisteminin yenidən qurulması da sakinlər üçün mühüm töhfə olmuşdur. Hazırda şəhərin bir sıra küçələrində, “İncilli” yaşayış massivində, “Şəfa” bağlar ərazisində abadlıq işləri görülür. Uzun illər diqqət və qayğıdan kənarda qalan bu sahələr daha müasir, daha abad əraziyə çevrilir.

İcra hakimiyyətinin başçısı İlham İsmayılov şəhər gününə həsr olunmuş tədbirdə yenidən qurulan və salınan “Qurucular”, “Bələdiyyə”, “Sağ sahil” parklarında və “Azərbaycan İES” yaşayış massivi ərazilərində sakinlərlə görüşü zamanı görüləcək işlər haqqında fikirlərini açıqlayaraq qeyd etmişdir ki, Mingəçevirdə abadlaşmayan məhəllə, park və xiyaban, prospekt və küçə olmayacaq, dövlət başçısının tapşırıq və tövsiyələri bütünlüklə yerinə yetiriləcək.

***Lazım QULİYEV,***
***“Azərbaycan”***

Azərbaycan.- 2020.-15 noyabr.- S.10.